QANUN № 02 (376), 2026, s. 91-95

**Quliyeva Nigar Eldar qızı,**
Bakı Dövlət Universitetinin Mülki proses və kommersiya hüququ kafedrasının doktorantı
E-mail: nigar.quliyeva.1992@mail.ru

**UOT 347.9**
**DOI: https://doi.org/10.30546/2218-9130.043.2026.549**

# AZƏRBAYCAN RESPUBLİKASINDA KOMMERSİYA MÜBAHİSƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *kommersiya mübahisəsi, mübahisənin xüsusiyyəti, sahibkarlıq fəaliyyəti.*

***Ключевые слова:*** *коммерческий спор, характер спора, предпринимательская деятельность.*

***Keywords:*** *commercial dispute, nature of the dispute, entrepreneurial activity.*

## Giriş

Kommersiya mübahisələri məhkəmələrdə baxılan mübahisələrin bir növüdür və bu mübahisələr tərəflərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan mübahisələrdir, eyni zamanda onu da qeyd etmək lazımdır ki, bu mübahisələr qanunvericiliyə müvafiq dəyişikliklər edilənə qədər iqtisadi mübahisə hesab olunurdu və bu kateqoriyadan olan mübahisələrə inzibati-iqtisadi məhkəmələrdə baxılırdı. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" 9 iyul 2019-cu il tarixli 1633-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə qanunvericiliyə kommersiya mübahisəsi anlayışı daxil edildi və məhkəmə sistemində kommersiya məhkəmələrinin yaradılması müəyyənləşdirildi.

Mülki prosessual qanunvericiliyə uyğun olaraq, məhkəmələrin icraatına qəbul edilən işlər mülki və kommersiya mübahisələri kateqoriyalarına bölünür. Bu məqalədə kommersiya mübahisələrindən və onların xarakterik cəhətlərindən bəhs edilir.

## Əsas müddəalar

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (bundan sonra – Mülki Prosessual Məcəllə) əsasən mübahisə tərəflərin sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olduqda bu zaman işlərə mülki məhkəmə icraatı qaydasında kommersiya məhkəmələrində baxılır. Tərəflər arasında yaranmış mübahisə sahibkarlıq fəaliyyəti ilə əlaqədar olmadıqda bu mübahisələr mülki mübahisə kateqoriyasına daxil olur və bu mübahisələrə ümumi məhkəmələrdə baxılır.

Mülki prosessual qanunvericiliyə görə mübahisənin ümumi məhkəməyə və ya kommersiya məhkəməsinə aidiyyəti iştirak edən şəxslərin subyektiv tərkibi, mübahisənin predmeti və hüquq münasibətlərinin xarakteri nəzərə alınmaqla, Mülki Prosessual Məcəlləyə müvafiq olaraq müəyyən edilir [1, s. 19].

Kommersiya mübahisələri tərəflərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar olduğuna görə mütləqdir ki, bu mübahisələrdə tərəflərdən ən azı biri sahibkar olsun. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə görə, sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların istehsalından və

(və ya) satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) götürülməsi olan fəaliyyətdir [2, s. 2]. Sahibkar sahibkarlıq fəaliyyətini həyata keçirən və bu fəaliyyətdən mənfəət (fərdi sahibkarlar tərəfindən gəlir) əldə edən şəxsdir. Mübahisənin kommersiya və ya mülki mübahisə olmasının aydınlaşdırılmasında tərəflərin subyekt tərkibi ilə bağlı meyarının nəzərə alınması vacib məsələlərdən biridir. Kommersiya mübahisələri üzrə tərəflər qismində bütün mümkün mülki hüquq münasibətlərinin subyektləri (*hüquqi şəxslər, fərdi sahibkarlar, dövlət orqanları, bələdiyyələr, fərdi sahibkar statusuna malik olmayan fiziki şəxslər*) iştirak edə bilərlər. Bu meyarın nəzərdən keçirilməsi zamanı əlavə olaraq məhkəmələr tərəfindən nəzərə alınmalı olan digər bir hal da qeyri-hökumət təşkilatlarının və publik hüquqi şəxslərin fəaliyyətini tənzimləyən qanunlarla (*"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanunları*) onların sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilmə imkanı nəzərə alınmalıdır. Adıçəkilən normativ hüquqi aktlara əsasən nizamnamələrində və ya əsasnamələrində nəzərdə tutulduğu hallarda qeyri-kommersiya hüquqi şəxsləri, publik hüquqi şəxslər sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Bu səbəbdən də qeyri-kommersiya qurumlarının, publik hüquqi şəxslərin və fərdi sahibkarların kommersiya mübahisəsinin subyekti olması imkanı mübahisənin onların qanunla qadağan edilməyən sahibkarlıq fəaliyyətindən irəli gəldiyi hallarda mümkün olacaqdır. Mübahisə onların qanunla qadağan olunmayan sahibkarlıq fəaliyyətindən irəli gəlirsə, bu zaman işə kommersiya məhkəmələrində baxılmalıdır. Mübahisənin qanunla qadağan olunmayan sahibkarlıq fəaliyyətindən irəli gəlməməsi halında isə mülki mübahisələrin kommersiya məhkəmələrinin baxış predmetini təşkil etməsinə bir-biri ilə bağlı olan bir neçə tələbin birləşdirilməsi halında digər kommersiya mübahisəsi ilə birgə baxıldığı halda yol verilir.

Mübahisə tərəfinin subyekt tərkibindən danışarkən onu da qeyd etmək vacibdir ki, dövlət orqanları və bələdiyyələr mülki dövriyyənin subyektləri qismində eyni ilə digər hüquqi şəxslər kimi iştirak edə bilərlər. Bununla bağlı qanunvericiliyimizdə qadağa mövcud deyildir. Məhz belə olan hallarda sahibkarlıq subyektləri tərəfindən dövlət orqanlarına və bələdiyyələrə qarşı və ya sonuncuların sahibkarlıq subyektlərinə qarşı tələbləri mahiyyət etibarı ilə iqtisadi məzmunlu olduğundan, habelə bu tələblərdən irəli gələn mübahisələrə tətbiq edilən maddi hüquq normalarının sahibkarlıq fəaliyyətini tənzimləyən normalara aid olduğundan həmin mübahisələrə kommersiya məhkəmələrində baxılmalıdır. Həmçinin nəzərə alınmalıdır ki, Mülki Prosessual Məcəllənin 26.2-ci maddəsində müvafiq icra hakimiyyəti orqanının (*İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin*) vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə ərizələrinə kommersiya işi kimi kommersiya məhkəmələrində baxılmasının mümkünlüyü nəzərdə tutulmaqla dövlət orqanının kommersiya mübahisəsində tərəf olması istisna edilməmişdir [3, s. 6].

Mübahisənin məhkəmə aidiyyəti müəyyənləşdirilərkən nəzərə alınmalı olan digər hal – mübahisənin predmetidir. Mübahisənin predmeti iddianın predmeti ilə eyniləşdirilə bilməz. İddianın predmeti dedikdə iddiaçının barəsində qərar qəbul olunmasını xahiş etdiyi subyektiv hüququ başa düşülür. İddianın predmetinə qanunla qorunan maraqları, o cümlədən bütövlükdə hüquq münasibətlərini aid etmək olar.

Mübahisənin predmeti isə nisbətən daha geniş anlayışdır və işin məhkəmə baxışı zamanı cavabdeh tərəfindən qarşılıqlı iddia irəli sürüldükdə həmin iddianın da predmeti Mülki Prosessual

Məcəllənin 220.3 və 264.0.3-cü maddələrinin məzmununa uyğun olaraq, məhkəmə qərardadları və qətnamələrində mübahisə predmetinin tərkib hissəsi kimi göstərilməlidir.

Bununla yanaşı, məhkəmə araşdırması zamanı, əsas iddia ərizəsində göstərilməsindən, yaxud sonradan işə baxılması əsnasında meydana gəlməsindən asılı olmayaraq, işin ədalətli həlli üçün əhəmiyyət kəsb edən bir sıra mübahisəli məsələlərin həllinə yol verilir. Bu baxımdan mübahisənin predmeti dedikdə, yalnız əsas iddianın deyil, eyni zamanda qarşılıqlı iddianın və üçüncü şəxsin iddiasının predmeti, habelə tərəflərdən heç birinin qaldırmadığı, lakin məhkəmə tərəfindən müstəqil olaraq, maddi və prosessual hüquq normalarının tələbləri və mövcud məhkəmə təcrübəsi nəzərə alınmaqla həll edilən məsələlər də başa düşülməlidir [4, s. 6].

Hüquq münasibətinin xarakteri dedikdə isə tərəflər arasında yaranmış münasibətin hüquqi mahiyyəti və növü nəzərdə tutulur. Mübahisənin kommersiya mübahisəsi olması və ona kommersiya məhkəməsində baxılması üçün hüquq münasibətlərinin xarakterinə qiymət verilərkən əsas tələb (və yaxud birlikdə baxılması mümkün olan əsas tələblərdən ən azı biri) üzrə mübahisənin tərəflərdən yalnız birinin deyil, ən azı iki qarşı tərəfin ayrı-ayrılıqda və ya birgə həyata keçirilən sahibkarlıq fəaliyyətindən, yaxud da tərəflərin (sahibkarlıq subyekti olub-olmamasından asılı olmayaraq) bağlı olduqları bir sahibkarlıq subyektinin özünün fəaliyyətinin həyata keçirilməsindən irəli gəlməlidir [3, s. 7].

Onu da qeyd etmək lazımdır ki, bir sıra kateqoriya işlərin xüsusiyyətləri hüquq münasibətinin xarakteri baxımından bu və ya digər formada işin ümumi və yaxud kommersiya mübahisəsi olmasını birbaşa olaraq müəyyənləşdirmək mümkündür. Müflisləşmə, sənaye mülkiyyəti obyektlərinin (əmtəə nişanı, coğrafi göstərici, ixtira, faydalı model və sənaye nümunəsi) istifadəsi və müdafiəsi ilə bağlı olan işlərə (şəxsi hüquqların müdafiəsi ilə bağlı tələblər istisna olmaqla), həmçinin kommersiya hüquqi şəxsləri ilə bağlı korporativ tələblər (təsisçilər, üzvlər, iştirakçılar, hüquqi şəxsin nizamnaməsinə əsasən idarəetmə orqanlarının nümayəndələri arasında və ya onlar ilə hüquqi şəxsin arasında olan tələblər) sahibkarlıq fəaliyyətindən irəli gəlir və bu işlər kommersiya mübahisələri hesab olunur. Əksinə, ailə-nikah, mənzil, əmək, vərəsəlik, renta, istehlak münasibətlərindən, habelə müəlliflikə bağlı qeyri-əmlak hüquqlarının həyata keçirilməsindən irəli gələn mübahisələrin xüsusiyyəti tərəflərin sahibkarlıq fəaliyyətindən irəli gəlməsini istisna etməklə, onlar mahiyyət etibarilə mülki işlər hesab olunur və bu işlərlə bağlı mübahisələrə ümumi məhkəmələrdə baxılır [3, s. 7].

Bundan başqa, Mülki Prosessual Məcəllədə həmin Məcəllənin 40-5-ci fəslində nəzərdə tutulan "Bankın öhdəliklərinin könüllü restrukturizasiyası" haqqında işlərin yalnız sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gəldiyi müəyyən edilmişdir və bu işlər üzrə mübahisələr kommersiya mübahisələri hesab olunur.

Yuxarıda qeyd edilənlərlə yanaşı, Mülki Prosessual Məcəllənin 26.2-ci maddəsinə əsasən həmin Məcəllənin 35-ci "İtirilmiş sənədlər üzrə hüquqların bərpa edilməsi (çağırış icraatı)" və 40-2-ci "Vergi ödəyicisi və ya sığortaedən olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında işlər üzrə icraat" fəsillərində nəzərdə tutulmuş işlər sahibkarlıq fəaliyyəti ilə əlaqədar olduqda kommersiya məhkəmələrində baxılır. Qeyd edilən işlər üzrə mübahisələr tərəflərin sahibkarlıq fəaliyyətindən irəli gəlmədikdə həmin işlərə mülki işlər kimi ümumi məhkəmələrdə baxılır [1, s. 19].

Onu da qeyd etmək zəruridir ki, yuxarıda göstərilən hər 3 meyardan birinin digərləri ilə qarşılıqlı bağlılığının olmaması işin kommersiya mübahisəsi hesab edilməməsi üçün əsasdır, qeyd

edilən meyarlar qarşılıqlı şəkildə bağlı olduqda isə mövcud mübahisə kommersiya mübahisəsi hesab olunur və mübahisəyə aidiyyəti üzrə kommersiya məhkəmələrində baxılır.

Əlavə olaraq o da qeyd olunmalıdır ki, məhkəmələr tərəfindən iş icraata qəbul edilərkən müəyyən edilməli olan hallardan biri məhkəmə aidiyyətinin yoxlanılmasıdır. Göründüyü kimi, mübahisənin kommersiya, yoxsa mülki mübahisə olması səlahiyyətli məhkəmənin düzgün müəyyən edilməsi üçün mütləqdir. Bunun görə də zəruri və vacib məqamlara xüsusi diqqət ayrılmalıdır. Məhkəmə aidiyyəti müəyyən edilərkən mübahisənin kommersiya mübahisəsi olduğu müəyyən edildikdə kommersiya məhkəmələrinə müraciət edilir. Məhkəmələr tərəfindən aidiyyət qaydalarının pozulmasına icazə verilmir və məhkəmə aidiyyətinin düzgün müəyyən edilməsi və səlahiyyətli məhkəmənin işi icraatına qəbul etməsi olduqca zəruridir.

**Nəticə**

Göründüyü kimi, yaranmış mübahisənin, ilk növbədə, hansı mübahisə kateqoriyasının aid edilməsini müəyyən etmək labüddür və bunun üçün qanunvericilikdə müəyyən vacib meyarlar müəyyən edilmişdir, bu meyarların mövcudluğu və qarşılıqlı əlaqədə olması tələb olunur. Bu meyarlardan hər hansı birinin olmaması mübahisənin kommersiya mübahisəsi kimi tanınmasına imkan vermir.

Kommersiya mübahisələrinin əsas xüsusiyyəti onların tərəflərin sahibkarlıq fəaliyyəti ilə bağlı hüquq münasibətlərindən irəli gəlməsidir. Bu baxımdan mübahisədə iştirak edən subyektlərin yalnız formal statusu deyil, onların konkret hüquq münasibətləri çərçivəsində sahibkarlıq fəaliyyəti həyata keçirib-keçirməməsi həlledici rol oynayır. Eyni zamanda, mübahisənin predmeti və hüquq münasibətlərinin xarakteri də məhkəmə aidiyyətinin müəyyən edilməsində mühüm əhəmiyyət kəsb edir. Mübahisənin yalnız iddia tələbi ilə məhdudlaşmaması, həm qarşılıqlı iddiaları, həm də məhkəmənin baxdığı bütün hüquqi məsələləri əhatə etməsi kommersiya mübahisələrinin daha geniş hüquqi məzmun daşıdığını göstərir.

Məhkəməyə müraciət edilərkən mübahisənin kommersiya və ya mülki xarakterinin düzgün müəyyən edilməsi tərəflərin hüquqlarının səmərəli müdafiəsi və məhkəmə sistemində səlahiyyət bölgüsünün təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Aidiyyət qaydalarına əməl edilməməsi işin baxılmasının ləngiməsinə və prosessual hüquqların pozulmasına səbəb ola biləcəyindən, məhkəmələr və tərəflər bu məsələyə xüsusi diqqət yetirməlidirlər.

Qeyd edilməlidir ki, qüvvədə olan mülki prosessual qanunvericilikdə mülki və kommersiya mübahisələrinə məhkəmələrdə baxılması qaydaları arasında prinsipial prosessual fərqlər nəzərdə tutulmamışdır; fərq əsasən işlərin ixtisaslaşmış məhkəmələr arasında bölgüsündə təzahür edir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi // Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 780-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. – Bakı: Qanun, – 2025, – 456 s.

2. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 15 dekabr 1992-ci il tarixli 405 nömrəli Qanunu. [Elektron resurs] / URL: https://e-qanun.az/framework/7920

3. "İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 18 Sentyabr 2020-ci il tarixli Qərarı. [Elektron resurs] / URL: https://e-qanun.az/framework/47287

4. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 14 fevral 2019-cu il tarixli H.Cəfərovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 4 dekabr 2017-ci il tarixli qərardadının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair Qərarı. [Elektron resurs] / URL: https://www.constcourt.gov.az/az/decision/1228

**Гулиева Нигяр Эльдар гызы,**
докторант кафедры гражданского процессуального и
коммерческого права Бакинского государственного университета

## ОСОБЕННОСТИ КОММЕРЧЕСКИХ СПОРОВ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

### РЕЗЮМЕ

В статье рассматривается значение правильного определения категории дела и подсудности для эффективного разрешения споров между сторонами. Анализируется необходимость корректной квалификации спора как первоочередного шага в судебном процессе. Особое внимание уделяется установлению взаимосвязи между субъектным составом сторон, предметом спора и характером спорных правоотношений, что позволяет обеспечить адекватное применение норм процессуального права и повысить эффективность судебной защиты прав участников спора.

**Guliyeva Nigar Eldar,**
Doctoral Student, Civil Process and
Commerce Department, Baku State University

## FEATURES OF COMMERCIAL DISPUTES IN THE REPUBLIC OF AZERBAIJAN

### SUMMARY

To ensure the proper resolution of a dispute arising between the parties, it is essential first to determine the category of the case and to submit it to the court with the appropriate jurisdiction. Therefore, in order to resolve the dispute, its category must be correctly identified at the outset. For this purpose, it must be clarified whether there is an interrelation between the criteria of the parties' subjective composition, the subject matter of the dispute, and the nature of the legal relationship.

**Redaksiyaya daxil olma tarixi: 14.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 23.02.2026**
**Çapa qəbul olunma tarixi: 24.02.2026**